# Səyyar görüşlər sakinlərdə ruh yüksəkliyi yaradır

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yaşayış məntəqələrində əhali ilə müntəzəm olaraq görüşlər keçirir, onların qayğı və problemləri ilə maraqlanır, yaranmış çatışmazlıqlar yerindəcə həll edilir.***

***Yeni ilin ilk günlərində də icra başçısı qəsəbə və kənd sakinləri ilə tez-tez görüşür, ərazidə təsərrüfat işlərinin gedişi ilə maraqlanır. Bu da camaatda böyük ruh yüksəkliyi yaradır, torpaqda çalışan insanlara sözün əsl mənasında, qol-qanad verir.***

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Vəndam qəsəbə sakinləri ilə görüşqəbulu keçirilib. Görüşdə rayon icra hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və qəsəbə ictimaiyyətinin nümayəndələri iştirak edib.



Rayon icra hakimiyyətinin başçısı tədbirdə respublikamızın bu günkü uğurlu inkişafından danışıb. Bidirilib ki, bu gün respublikanın hər bir bölgəsində, o cümlədən Qəbələ rayonunda geniş tikinti-abadlıq işləri aparılır - yeni yollar salınır, qaz xətləri çəkilir, təhsil, səhiyyə müəssisələri inşa olunur, uşaq bağçaları tikilir, sosial layihələr həyata keçirilir.

Görülən işlər, həyata keçirilən tədbirlər əhalimizin yaxşı yaşamasına, onların sosial rifahının və həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət edir.



Görüşdə son illər Vəndam qəsəbəsində də geniş quruculuq işlərinin aparıldığı, sosial problemlərin aradan qaldırıldığı qeyd olunub. Yaşayış məntəqəsində 1 nömrəli məktəbin əsaslı təmir olunduğu, 2 nömrəli məktəb üçün yeni bina inşa edildiyi, qəsəbə ərazisində xeyli iş yeri olan gülçülük istixanasının yaradıldığı və bu il oktyabr ayının 28-də ölkə başçımız cənab İlham Əliyev tərəfindən təntənəli açılış mərasiminin keçirildiyi, daxili yollarda təmir işlərinin aparıldığı, sakinlərin fasiləsiz rabitə, elektrik enerjisi və qaz ilə təchiz edildiyi, əlavə artezian quyusunun qazıldığı vurğulanıb.

RİH-nin başçısı görülən bu işlərin insanların rifahının daha da yaxşılaşdırılmasına xidmət etdiyini vurğulayıb.

Sonra qəsəbə sakinləri dinlənilib.

Çıxış edənlərdən Allahverdi Qafarov, Gülçiçək Hüseynova, Sadıq Sadıqov, Rufi Əmrahov, Samir Hüseynov, Yahya Cəlilov və başqaları Qəbələ rayonunda və Vəndam qəsəbəsində görülmüş abadlıq-quruculuq işlərinə göstərilən diqqət və qayğıya görə sakinlər adından ölkə başçısına dərin minnətdarlıqlarını ifadə ediblər.

Onlar qəsəbədə həyətlərə düşən yağış sularının qarşısının alınması ilə bağlı tədbirlər görülməsinə, elektrik naqillərinin dəyişdirilməsinə, qəsəbədə yeni artezian quyusunun qazılmasına, yeni yaşayış massivinə qaz xəttinin çəkilməsinə, qəsəbədaxili yolların təmir olunmasına, yeni uşaq bağçasının və 3 nömrəli məktəb üçün binanın tikilməsinə köməklik göstərilməsini xahiş ediblər.

Görüşü yekunlaşdıran RİH başçısı əhali tərəfindən qaldırılan məsələlərin araşdırılaraq tədbir görülməsi üçün aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verib.

**"Qəbələ"**

# 2019-cu ildə ölkə və beynəlxalq idman yarışlarında müvəffəqiyyətlə çıxış etmiş idmançılarla görüş

Yola saldığımız 2019-cu il "Qəbələ" İdman Klubu üçün uğurlu olub. Belə ki, klubun yetirmələri bu il respublika və beynəlxalq səviyyəli yarışlarda 12 qızıl, 16 gümüş və 14 bürünc-ümumilikdə 42 medal qazanmışlar.





Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev "Qəbələ" İdman Klubunun 2019-cu il ölkə və beynəlxalq idman yarışlarında müvəffəqiyyətlə çıxış etmiş idmançılar ilə görüşmüşdür. Rayon icra hakimiyyətinin başçısı görüş iştirakçılarını salamlamış, Respublika Prezidenti İlham Əliyevin rəhbərliyilə ölkəmizdə və rayonumuzda 2019-cu ildə sosial-iqtisadi sahədə, o cümlədən idmanın daha da inkişaf etdirilməsi sahəsində əldə olunan uğurlardan danışmışdır. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlam Əliyev Milli Olimpiya Komitəsinin cari ilin idman yekunlarına həsr olunmuş mərasimində qeyd etmişdir ki, Azərbaycanda idmanın kütləviliyi təmin olunur. İdmanla məşğul olan gənclərin sayı kəskin artır. Azərbaycan çox böyük beynəlxalq səviyyəli idman yarışlarına uğurla ev sahibliyi edir. 2019-cu ildə idmançılarımız beynəlxalq yarışlarda 775 medal qazanıblar ki, onun 271-i qızıldır.

Ölkə idmançılarının bu uğurlarında "Qəbələ" İdman Klubunun yetirmələrinin də layiqli yeri vardır.

Rayon icra hakimiyyətinin başçısı idmançılarımızı 2019-cu ildə qazandıqları müvəffəqiyyətlər münasibətilə təbrik etmiş, 2020-ci ildə onlara daha böyük uğurlar arzulamışdır. RİH başçısı idmançıları həmçinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə də təbrik etmişdir.



"Qəbələ" idman klubunun ümumi işlər üzrə kordinatoru Əməkdar məşqçi Səbuhi Qarayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hərtərəfli diqqət və qayğısı sayəsində ölkəmizdə idmanın maddi-texniki bazasının dünya standartları səviyyəsinə qalxdığını və nəticədə bu sahədə çox böyük uğurların əldə olunduğunu bildirilmişdir. Səbuhi Qarayev qeyd etmişdir ki, ölkə Prezidentinin qayğısı sayəsində Qəbələdə də idmanın inkişafı üçün nəhəng layihələr həyata keçirilmişdir. İdmançılarımız bu qayğıya görə ölkə başçısına minnətdardırlar. İdman klubunun koordinatoru "Qəbələ" İdman Klubu təmsilçilərinin 2019-cu ildə əldə etdikləri nailiyyətlər barədə rayon icra hakimiyyətinin başçısına məlumat vermişdir.

Sonra rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev "Qəbələ" İdan Klubunun 2019-cu ildə ölkə və beynəlxalq yarışlarda müvəffəqiyyətlə çıxış etmiş idmançılarına, məşqçilərinə RİH-nin mükafatlarını təqdim etmişdir.



"Qəbələ" İdman Klubunun koordinatoru rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə klubun xatirə hədiyyəsini bağışlamışdır.

Tədbir xatirə şəklinin çəkilişi ilə başa çatmışdır.

**Qüdrət SƏMƏDOV,**
**İkin Vəlizadə (foto).**
**«Qəbələ»**